# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2024-cü il tarixinə bitən il üzrə
**Maliyyə Hesabatları**

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

Analitik-Audit Konsaltinq MMC
Bakı R.Bağırov 28/31
Baku, AZ1071
Azerbaijan
Tel: +994 (50) 2158238

**Azərbaycan İstilik Elektrik Stansiyası" M M C-nin Təsisçilərinə:**

**VÖEN 9900017251**

**Rəy**

Biz "Azərbaycan İstilik Elektrik Stansiyası" ASC-nin (bundan sonra "Cəmiyyət") 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün və ədalətli təsəvvür yaradır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq maliyyə hesabatları standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.
Cəmiyyətin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun olaraq aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar şəkkaklıq nümayiş etdiririk. Biz həmçinin:

Əlavə edilmiş qeydlər bu maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi daşımamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin, sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririrk.

**M – 35819** **LJ8GsMYhkN**
30 aprel 2025-ci il
Bakı, Azərbaycan Respublikası
"Analitik- Audit Konsaltinq"
MMC-nin Direktoru

Qurbanov A.

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | **31 dekabr 2024-cü il tarixinə bitən il** | **31 dekabr 2023-cü il tarixinə bitən il** |
|---|---|---|
| Enerji satışı | 214,601 | 239,856 |
| Xərclər: | | |
| Yanacaq | (148,536) | (175,282) |
| Köhnəlmə | (47,241) | (46,765) |
| Təmir və texniki xidmət | (4,629) | (3,597) |
| İşçi heyətinin saxlanılması xərcləri | (8,621) | (7,648) |
| Mənfəət vergisindən başqa digər vergilər | (3,592) | (3,210) |
| Xammal və materiallar | (816) | (1,479) |
| Digər | (4,360) | (2,634) |
| *Əməliyyat zərəri* | **(3,194)** | **(759)** |
| Xarici valyuta mübadiləsindən gəlir | 1 | 38 |
| Xarici valyuta mübadiləsindən zərər | (1) | (41) |
| *Mənfəət vergisindən əvvəl zərər* | (3,194) | (762) |
| Mənfəət vergisi xərcləri | (1,002) | (1,556) |
| **CƏMİ İL ÜZRƏ MƏCMU ZƏRƏR** | **(4,196)** | **(2,318)** |

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## 31 DEKABR 2024-CÜ İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| *Uzunmüddətli aktivlər* | | |
| Əmlak, tikili və avadanlıq | 535,249 | 454,790 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 1,047 | 4,471 |
| Digər uzunmüddətli aktivlər | 23,441 | 23,475 |
| *Cəmi uzunmüddətli aktivlər* | 559,737 | 482,736 |
| *Qısamüddətli aktivlər* | | |
| Mal-material ehtiyatları | 13,075 | 13,346 |
| Əvəzləşdirilən ƏDV | 28,013 | 16,673 |
| Ticarət və digər debitor borcları | 176,888 | 187,337 |
| Avans ödənişləri | 1,172 | 2,015 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 118 | 2,728 |
| *Cəmi qısamüddətli aktivlər* | 219,266 | 222,099 |
| **CƏMİ AKTİVLƏR** | **779,003** | **704,835** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| *Kapital* | | |
| Nizamnamə kapitalı | 5,108 | 5,108 |
| Əlavə ödənilmiş kapital | 383,771 | 383,771 |
| Bölüşdürülməmiş mənfəət | 82,432 | 86,628 |
| *Cəmi kapital* | 471,311 | 475,507 |
| *Uzunmüddətli öhdəliklər* | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 48,341 | 47,378 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 48,341 | 47,378 |
| *Qısamüddətli öhdəliklər* | | |
| Ticarət və digər kreditor borcları | 237,321 | 156,683 |
| Cari mənfəət vergisi öhdəliyi | 342 | 379 |
| Mənfəət vergisindən başqa digər vergi öhdəlikləri | 21,688 | 24,888 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 259,351 | 181,950 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 307,692 | 229,328 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **779,003** | **704,835** |

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2023-cü il tarixinə qalıq** | **5,108** | **383,555** | **88,946** | **477,609** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (2,318) | (2,318) |
| Səhmdardan əldə olunmuş vəsaitlər | - | 216 | - | 216 |
| **31 dekabr 2023-cü il tarixinə qalıq** | **5,108** | **383,771** | **86,628** | **475,507** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (4,196) | (4,196) |
| Səhmdardan əldə olunmuş vəsaitlər | - | - | - | - |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **5,108** | **383,771** | **82,432** | **471,311** |

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## 31 DEKABR 2024-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2024-cü il tarixinə bitən il | 31 dekabr 2023-cü il tarixinə bitən il |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Mənfəət vergisindən əvvəl zərər | (3,194) | (763) |
| *Düzəlişlər:* | | |
| Köhnəlmə və amortizasiya | 47,241 | 46,765 |
| Mal-material ehtiyatlarında dəyişiklik | 45 | 88 |
| Torpaq, tikili və avadanlığın satılması üzrə gəlir | (11) | - |
| Xarici valyuta mübadiləsindən gəlir | (1) | (38) |
| Xarici valyuta mübadiləsindən zərər | 1 | 41 |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | **44,081** | **46,093** |
| Mal-material ehtiyatlarında dəyişiklik | 100,628 | (75,828) |
| ƏDV-nin əvəzləşdirilməsində dəyişiklik | (15,034) | (14,992) |
| Ticarət və digər debitor borclarında dəyişiklik | 10,866 | (66,935) |
| Qabaqcadan ödənişlərdə dəyişiklik | 533 | (463) |
| Ticarət və digər kreditor borclarında dəyişiklik | (71,445) | 156,822 |
| Vergi öhdəliklərində dəyişiklik | 340 | 10,769 |
| **Mənfəət vergisi üzrə ödənişlərdən əvvəl əməliyyatlardan daxil olan pul vəsaitləri** | **69,969** | **55,466** |
| Ödənilmiş mənfəət vergisi | - | - |
| **Əməliyyat fəaliyyətləri üzrə əldə olunmuş xalis pul vəsaitləri** | **69,969** | **55,466** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlıq üçün ödənişlər | (72,578) | (52,735) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(72,578)** | **(52,735)** |
| **PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS (AZALMA) / ARTIM** | **(2,609)** | **2,731** |
| **İLİN ƏVVƏLİNDƏ PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **2,728** | **-** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan pul vəsaitlərinin ekvivalentlərinə təsiri | (1) | (3) |
| **İLİN SONUNDA PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **118** | **2,728** |